No: 01 2025
http://doi.org/10.64400/ndueej.025
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİ VƏ MƏKTƏBLƏRİN İNFRASTRUKTURU: PROBLEMLƏR VƏ İSLAHATLAR (1995-2003-cü illər)

**Nuray Hacıyeva**
https://orcid.org/0009-0003-4717-1798
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
**Yazışılan müəllif: haciyevanurka92@gmail.com; Tel.: +994605204121*

## XÜLASƏ

1995-2003-cü illər Naxçıvan Muxtar Respublikasında təhsil və elm sisteminin inkişafında mühüm mərhələdir. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra milli təhsil sisteminin infrastrukturunun müasirləşdirilməsi və təkmilləşdirilməsi, istiqamətində əsaslı islahatlara başlanıldı. Bu islahatlar Naxçıvanın təhsil mənzərəsinə əhəmiyyətli dərəcədə təsir göstərmiş, məktəbəqədər təhsil müəssisələri və məktəblərin infrastrukturunun müasir standartlara uyğunlaşdırılmsına imkan vermişdir.

Məqalədə 1995-2003-cü illərdə Naxçıvan Muxtar Respublikasında təhsil infrastrukturunun problemləri, onların aradan qaldırılması üçün görülən işlər və islahatların təhlili aparılmışdır.

Tədqiqatda arxiv sənədləri, statistik məlumatlar və elmi ədəbiyyatın təhlili kimi metodlardan istifadə edilmişdir. Məqalədə ilk dəfə olaraq, həmin dövrdə mövcud problemlərin aradan qaldırılması üçün həyata keçirilən tədbirlərin effektivliliyi qiymətləndirilmişdir. Müəyyən edilmişdir ki, 1991-ci ildən başlayaraq, məktəbəqədər təhsil müəssisələrinin infrastrukturunda müxtəlif problemlər meydana çıxmış və bu onların fəaliyyətinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdi. Ən böyük çətinliklər maddi-texniki təminatın zəif olması və peşəkar kadr çatışmazlığı ilə bağlı olmuşdur.

Ümumtəhsil məktəblərinin infrastrukturu həmin illərdə təkmilləşdirilməyə başlanmışdır. Təhsil müəssisələrinin binalarının təmir olunması, tədris avadanlıqlarının yenilənməsi və müəllimlərin peşə hazırlığının artırılması üçün işlər həyata keçirilmişdi. Naxçıvan Muxtar Respublikasının müxtəlif bölgələrində məktəblər üçün yeni tədris binalarının inşasına başlanmış, mövcud məktəblərin əsaslı təmiri aparılmışdır.

Bu dövrün sonunda məktəbəqədər və ümumtəhsil məktəblərində müəyyən irəliləyişlər əldə edilsə də, təhsil infrastrukturunun tam şəkildə təkmilləşməsi üçün daha geniş və davamlı islahatlar ehtiyacı olduğu aydın olmuşdur. Həmin islahatlar isə 2003-cü ildən sonrakı mərhələdə - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti illərində uğurla həyata keçirilmişdir.

**Açar sözlər:** *təhsil, məktəbəqədər, məktəb, Naxçıvan, muxtar respublika, islahat, problem*

## GİRİŞ

1995-2003-cü illər Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində mühüm inkişaf mərhələsi təşkil etmişdir. Bu dövr, təhsil infrastrukturunun təkmilləşdirilməsi və tədris keyfiyyətinin artırılması baxımından bir sıra islahatların həyata keçirildiyi bir dövr olmuşdur. Məktəbəqədər təhsil müəssisələri və ümumtəhsil məktəblərinin infrastrukturu ilə bağlı qarşıya çıxan problemlər, həmçinin bu sahədə aparılan islahatlar bu dövrün əsas mövzularından biridir. Həmin illərdə Naxçıvan Muxtar Respublikasının təhsil sisteminin əsas prioritetlərindən biri, uşaqların erkən yaşda təhsil almasının təmin edilməsi və onların inkişafı üçün uyğun mühitin yaradılması idi. Təhsil sisteminin digər pillələrində əhəmiyyətli dəyişikliklərin edilməsi məktəbəqədər təhsil müəssisələrinin inkişafı və tədris infrastrukturunun yenilənməsi sahəsində addımların atılmasını zəruri edirdi. Bununla yanaşı, məktəblərdə tədrisin keyfiyyətinin artırılması, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və müəllimlərin peşə hazırlığının təkmilləşdirilməsi məsələləri əsas diqqət mərkəzində olmuşdur.

Ümummilli liderin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra dövlət quruculuğunda digər sahələrlə yanaşı milli təhsil quruculuğu və ölkədə elmin müxtəlif sahələrinin inkişafı məqsədi ilə

islahatların aparılmasına başlanılmışdı. XX əsrin 90-cı illərinin sonlarına yaxın təhsil sisteminin çağdaş dünyanın standartlarına uyğunlaşdırılması məqsədi ilə bir sıra sənədlər qəbul edilmişdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu ilin iyun ayının 15-də imzaladığı sərəncamla təsdiq edilən "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" bu baxımdan mühüm dövlət sənədlərindən biri olmuşdur. 2000-ci il iyunun 13-də ölkə prezidenti "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman imzalamış, təhsil sahəsinin qlobal problemlərini əhatə etmək baxımından bu sənədin böyük əhəmiyyəti olmuşdur.

## ƏSAS HİSSƏ

Tədqiq olunan illərdə Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafına təsir göstərən bir neçə mühüm amil mövcud idi. İlk növbədə nəzərə almaq lazımdır ki, tarixən Naxçıvan diyarı Azərbaycanın elm və təhsil mərkəzlərindən biri hesab edilmiş, hələ orta əsrlər dövründə burada mədrəsələr, məktəblər fəaliyyət göstərmiş, Naxçıvani, Ordubadi və digər təxəllüslərlə tanınan çoxlu sayda alimlər və mütəfəkkirlər Yaxın Şərqin bir sıra elm mərkəzlərində fəaliyyət göstərmişlər. Digər tərəfdən XX əsrin 90-cı illərində zəifləmiş iqtisadi potensial səbəbindən əhalinin çalışa biləcəyi iş yerlərinin sayı sürətlə azalmışdı. Belə şəraitdə iş yerlərinin qorunub saxlanılması üçün təhsil müəssisələrinin fəaliyyəti zəruri məsələlərdən biri hesab edilirdi. Bunu statistik xarakterli məlumatlar da təsdiqləyir. Məsələn, 1997-1998-ci dərs ilində muxtar respublikadakı təhsil müəssisələrində 7928 nəfər müəllim işləyirdisə, 1998-ci ilin ilk doqquz ayında bu rəqəm 8038-ə çatırdı. Onların 7218 nəfəri və ya 80 faizi ali təhsilə malik ixtisaslı müəllimələr idi [6, s. 3].

XX əsrin 90-cı illərinin sonlarında muxtar respublikada 500-ə yaxın təhsil və tərbiyə müəssisəsi, o cümlədən 228 gündüz, 1 axşam ümumtəhsil məktəbi, 110 gündüz məktəbi nəzdində axşam əyani-qiyabi sinifləri, 110 məktəbəqədər, 26 məktəbdənkənar uşaq tərbiyə müəssisəsi, 12 idman şahmat məktəbi, 2 peşə liseyi, 5 texniki peşə məktəbi, fəaliyyət göstərirdi [6, s. 1].

Bu illərdə təhsilin inkişafı üçün həyata keçirilən islahatların təhlili bir sıra maraqlı məqamları aydınlaşdırmağa imkan verir. Aydın olur ki, təhsil müəssisələrində işləyən pedaqoji kadrlarının ixtisaslarının artırılması, onlara elmi-metodiki köməkliyin vaxtlı-vaxtında göstərilməsi daim diqqət mərkəzində saxlanılmışdır.

Mühüm məsələlərdən biri məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin təşkili olmuşdur. 1995-2003-cü illərdə aparılan işlər sayəsində bu tipli müəssisələrin fəaliyyətini qənaətbəxş səviyyəyə gətirib çatdırmaq mümkün olmuşdur. Hələ 90-cı illərin sonlarından kifayət qədər sosial-iqtisadi problemlərin olduğu şəraitdə bağçaların ərzaqla təmininə ciddi nəzarət edilir, payız-qış mövsümlərində otaqların qızdırılması üçün ilk növbədə bu müəssisələrə köməklik göstərilirdi [12, v. 14].

Bağçaların maddi texniki bazasının gücləndirilməsinə ehtiyac var idi. XX əsrin 90-cı illərinin sonlarına aid olan sənədlərdən birində yazılırdı ki, Naxçıvan şəhərindəki uşaq bağçalarının əksəriyyətinin, şəhərdəki 4 nömrəli məktəbin əsaslı təmirə, bundan əlavə pəncərə şüşəsinə, şiferə böyük ehtiyac vardır [12, v. 18]. Bəzi hallarda arxiv sənədlərində məktəbəqədər müəssisələrə müvafiq dövlət qurumları tərəfindən edilən köməkliklərin yetərli olmaması ilə bağlı məlumatlara da rast gəlinir. Bu xüsusən özünü böyük rayonlarda göstərirdi. Məsələn, 1998-1999-cu illərdə Culfa rayonunda fəaliyyət göstərən 17 uşaq bağçasından 7-si şəraiti olmayan uyğunlaşdırılmış binalarda yerləşdirilmişdi, şəhər 1 və 2 saylı uşaq bağçalarının əsaslı təmirə ehtiyac var idi. Gal, Xanağa, Milax, Teyvaz, Ərəfsə kəndlərində olan uşaq bağçalarında bərk və yumşaq inventarlar demək olar ki, yox idi. Culfa rayon ümumtəhsil məktəblərində, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələrində 1998/99-cu tədris ilinin nəticələrinin yekunu və 1999/2000-ci tədris ilinin birinci yarısında görülən işlərə dair arayışda bu barədə yazılırdı: "Qış aylarında bağçaların binaları qızdırılmadığından onlar fəaliyyətini dayandırır və ya fasilələrlə işləyirlər. Uşaq bağçaları ilboyu ət, süd və süd məhsulları ilə təmin olunmur, meyvə və tərəvəz alınmırlar. Buna səbəb uşaq bağçalarına maliyyə xərclərinin kifayət qədər ayrılmamasıdır" [4, v. 8].

2001-2002-ci tədris ilində 36 məktəbəqədər müəssisənin fəaliyyət göstərdiyi Şərur rayonunda bu cür müəssisələrinin saxlanılması üçün maliyyə çatışmazlıqlarının olması, ərzaq verilməməsi ilə bağlı məlumatlar da həmin dövrün arxiv sənədlərində əksini tapmışdır [13, v. 11]. Bununla bərabər vurğulamaq lazımdır ki, tədrici şəkildə ayrı-ayrı yaşayış məntəqələrində təhsil müəssisələri üçün dövlət

vəsaitləri hesabına yeni binalarının inşası, onların əsaslı təmiri və istifadəyə verilməsi də müşahidə edilirdi. Məsələn 1999-2000-ci tədris ilinə hazırlıqlarla əlaqədar olaraq Şərur rayonunun Alışar, Kərimbəyli, Qarxun, Aşağı Yaycı kənd orta məktəblərində dövlət vəsaiti hesabına 10 milyon manatlıq cari təmir işləri görülmüş,, Zeyvə, Düdəngə, Mahmudkənd, Muğancıq-Mehrab, Maxta, Yuxarı Daşarx, Qıvraq kənd 2 saylı və digər məktəblərdə 20 milyon manatdan çox cari təmir işləri aparılmışdır [14, v. 3].

Beləliklə aydın olur ki, Şərur rayonunda o zaman 36 məktəbəqədər müəssisəsi olmasına baxmayaraq, bu müəssisələrin saxlanması üçün maliyyə çatışmazlıqları mövcud idi. Bu, xüsusilə ərzaq təminatının olmamasında özünü göstərirdi. Ərzaq çatışmazlığı müəssisələrin gündəlik fəaliyyətində ciddi çətinliklər yaradırdı. Ərzaq və maddi təminatın olmadığı şəraitdə məktəbəqədər müəssisələrdəm uşaq inkişafı və təhsil xidmətləri sahəsində keyfiyyət gözləmək olmazdı. Bu problemlərin arxiv sənədlərində əks olunması, təhsil sektorunun maddi və təşkilati vəziyyətinin zəif olduğunu və resurs çatışmazlığının nə dərəcədə ciddi bir məsələyə çevrildiyini ortaya qoyur.

Həmin illərdə muxtar respublikadakı məktəbəqədər müəssisələr içərisində Naxçıvan şəhərindəki 3 və 11 saylı uşaq bağçalarının fəaliyyəti xüsusən seçilirdi [12, v. 14]. 2003-cü ildə muxtar respublikada 90 məktəbəqədər təlim-tərbiyə müəssisəsi fəaliyyət göstərirdi. Onların 70 faizə yaxını kənd və qəsəbələrdə yerləşirdi. Buna baxmayaraq muxtar respublikanın şəhər və rayon mərkəzlərində yerləşən cəmi 31 məktəbəqədər müəssisədə təhsil alan uşaqların sayı bütün muxtar respublikadakı məktəbəqədər təhsil müəssisələrində təhsil və təlim alanların yarısını təşkil edirdi. Belə ki, şəhər yerlərində fəaliyyət göstərən 31 məktəbəqədər müəssisədə 2331 nəfər, kənd yerlərində yerləşən 59 müəssisədə isə 2370 nəfər təlim-tərbiyə alırdı. Bu bir neçə səbəblə bağlı idi. Belə ki, bir tərəfdən yaranmış sosial-iqtisadi vəziyyətlə əlaqədar olaraq əhalinin böyük bir qismi şəhər yerlərinə meyllənir, digər qismi isə muxtar respublikanı ümumiyyətlə tərk edərək başqa yerlərə köçürdü. 1995-2000-ci illərdə muxtar respublikadakı daimi məktəbəqədər uşaq müəssisələrində uşaqların sayının azalması demoqrafik vəziyyətin aydın mənzərəsini başa düşməyə imkan verir. Belə ki, əgər 1995-ci ildə muxtar respublikadakı 100 daimi məktəbəqədər müəssisədə 5500 uşaq təlim və tərbiyə alırdısa, 1997-ci ildə 105 məktəbəqədər müəssisədə oxuyan uşaqların sayı 5115 olmuşdu. 1999-2000-ci illərdə bu rəqəmlərdə cüzi artım olsa da yenidən 1995-ci ildəki saya gəlib çata bilməmişdi [9, s. 39].

Başqa bir səbəb ondan ibarət idi ki, kənd yerlərində olan məktəbəqədər təhsil müəssisələrinin maddi texniki bazası kifayət qədər zəif idi. Bu isə onlarda təlim-tərbiyə və təhsil işinin həyata keçirilməsinə imkan vermirdi. Bundan çıxış yolu kimi muxtar respublikanın Şərur, Şahbuz, Culfa, Ordubad, Babək rayon təhsil şöbələrinin tabeliyində olan məktəbəqədər tərbiyə müəssisələrinin bir çoxunun fəaliyyətinin dayandırılması ilə bağlı 2003-cü ildə qərarlar qəbul edilmişdi. Nəticədə Şərur rayonunda 14 (Xələc, Mahmudkənd, Ələkli, Danyeri, Dərəkənd, Dəmirçi, Oğlanqala, Axaməd, Qıvraq 2 saylı, Kürkənd, Cəlilkənd 2 saylı, Yurdçu, Havuş, Püsyan), Şahbuz rayonunda 3 (Keçili, Yuxarı Qışlaq, Güney Qışlaq), Culfa rayonunda 4 (Ərəfsə, Xanəgah, Gal, Yaycı 2 saylı); Ordubad rayonunda 2 (Dəstə və Tivi), Babək rayonunda 3 (Nehrəm, Cəhri 1 saylı və 2 saylı) uşaq bağçasının fəaliyyəti dayandırılmışdı [7, v. 1-2]. 2010-cu ilə qədər Naxçıvanda 1835 yerlik 15 məktəbəqədər müəssisə üçün yeni binalar istifadəyə verilmiş, bu kateqoriyadan olan müəssisələrin 87 faizi yenidən qurulmuşdu [5, s. 163].

Naxçıvan Muxtar Respublikasında təhsil müəssisələrinin maddi texniki bazasının gücləndirilməsi məqsədi ilə 1995-ci ildən sonra çoxsaylı tədbirlər həyata keçirilmişdi. Bir çox orta ümumtəhsil müəssisələrinin fəaliyyətləri ilə bağlı əsaslı struktur dəyişikliklər edilmişdi Məsələn 1998/1999-cu tədris ilinə qədər internat məktəbi kimi fəaliyyət göstərən Ə.Ağayev adına Naxçıvan şəhər internat məktəbi 1998-ci ilin sentyabr ayının 1-dən etibarən 8 saylı ümumtəhsil məktəbinə çevrilmiş, 2001-2002-ci tədris ilində Əliabad və Xətai kənd orta məktəbləri Naxçıvan şəhər təhsil şöbəsinin tabeliyinə verilmiş [11, v. 1], Şərur rayonundakı Dərvişlər kənd əsas məktəbi orta məktəbə çevrilmişdi [13, v. 2]. Naxçıvan şəhərində Heydər Əliyev adına orta məktəb yaradılmış, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü ilin sentyabr ayının 2-də məktəbin açılışında iştirak etmişdi [3, s. 120].

1995-1999-cu illərdə muxtar respublikada sosial-iqtisadi baxımdan hələ də qalmaqda olan çətinliklər orta təhsil müəssisələrinin maddi texniki bazasının yüksəldilməsi üçün əsaslı addımların

atılmasına imkan vermirdi. Belə vəziyyətdə məktəblər daxili imkanlar və valideynlərin maddi yardımları hesabına bu işləri həyata keçirməyə çalışırdılar. Bu cür məqamlar bir sıra arxiv sənədlərində də öz əksini tapmışdır. Məsələn, muxtar respublika Təhsil Nazirliyinin 1998-ci il üzrə 9 aylıq hesabatında yazılırdı: *"1998-99-cu tədris ilinə məktəblərin təmiri üçün qoyulmuş dövlət vəsaiti məlumdur ki, büdcədə çox azlıq təşkil edir. Buna baxmayaraq valideynlərin, məktəb kollektivlərinin, habelə məktəblərin özlərinin daxili imkanları hesabına vaxtında təmir edilmişdir..." [6, s. 1-2].* Naxçıvan şəhər təhsil şöbəsinin 1999-cu ildə gördüyü işlərə aid hesabatında bu barədə yazılırdı ki, yeni dərs ilinə hazırlıqla əlaqədar bir sıra işlər görülmüşdür. Məktəblərin əksəriyyəti valideynlərin və ictimaiyyətin köməyilə təmir edilmiş, sinif otaqları, fənn kabinələri qaydaya salınmışdı. Şöbənin 1999-2000-ci illərdə fəaliyyətinə dair hesabatında isə yazılırdı: *"Yeni dərs ilinə hazırlıqda əsas məsələlərdən biri tədris müəssisələrinin əsaslı və ya cari təmir edilməsindən ibarətdir. Büdcə vəsaitinin indiki vəziyyətində əsaslı təmirdən söhbət gedə bilməz. Ancaq cari təmirin aparılması üçün müəyyən işlər görülmüşdür. İmkanlı valideynlərin və pedaqoji kollektivlərin gücü hesabına may ayından başlayaraq bir sıra məktəblərdə təmir işlərinə başlanılmış və bu iş ardıcıl olaraq davam etdirilmişdi"[12, v. 8].*

Culfa rayon təhsil şöbəsinin 2000-ci ilə aid sənədlərindən birində yazılırdı ki, 1998-ci ildən 2000-ci ilə qədər məktəblərə tələb olunan mebel, tədris əyani vəsait, təlimin texniki vasitələri, laboratoriya və emalatxana avadanlıqları göndərilməmişdir. Daha sonra bunun nəticələrindən bəhs edilir və yazılırdı: *"Bütün bunlar tədrisin keyfiyyətinə mənfi təsir edir. Demək olar ki, məktəblərin maddi-texniki bazası zəifdir, yeni təhsil islahatının tələblərinə cavab vermir" [4, v. 2].*

Şahbuz Rayon Təhsil Şöbəsinin 2001-2002-ci tədris ilinə dair hesabatında yazılırdı: *"Rayon təhsil şöbəsi təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, mövcud avadanlıqların qorunub saxlanması üçün dərs ili müddətində müəyyən tədbirlər həyata keçirmiş, məktəb pedaqoji kollektivlərinin gücü ilə bir sıra cari təmir işləri aparılmışdır" [1, v.7].*

Şahbuz rayonunda həmin dövrdə məktəblərin maddi-texniki bazası ilə bağlı çatışmazlıqların aradan qaldırılması üçün bir sıra digər addımlar da atılmışdı. Məsələn, rayonun Aşağı Qışlaq kənd orta məktəbində tədrisin davam etdirilməsi üçün kənd icra nümayəndəliyinin balansında olan yarımçıq tikili bina məktəbə verilmiş, Badamlı və Aşağı Remeşin kənd orta məktəblərində dövlət vəsaiti xərclənmədən, yerli materiallardan istifadə edilməklə pedaqoji kollektivin gücü hesabına təmir və yenidənqurma işləri aparılmışdı [1, v. 7].

Vəziyyətin ağırlığı elə idi ki, muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinin orta məktəblərində istifadədən çıxarılmış, yeniləri ilə əvəzlənmiş avadanlıqlar istifadə üçün digər məktəblərə göndərilirdi. Məsələn, 1999-cu ildə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin xətti ilə Naxçıvan şəhər məktəbləri üçün 1200 yerlik parta, 30 ədəd müəllim stulu, 40 ədəd yazı lövhəsi, 110 ədəd şkaf verilmişdi. Ləvazimatların böyük qismi qimi şəhərdəki 1, 5, 7, 12 saylı məktəblərə göndərilmişdi. Həmin məktəblərdən uyğun yararlı avadanlıqlar isə götürülərək ehtiyacı olan digər məktəblərə verilmişdi [12, v.11]. Yaxud elə həmin ildə Şahbuz rayonunun Keçili kənd orta məktəbinin köhnə korpusundan sökülmüş tikinti materialları cari təmir işlərinin aparılması məqsədi ilə digər məktəblərə verilmiş, Naxçıvan şəhərindəki 6 saylı orta məktəbdən ayrılmış məktəb avadanlıqları ayrı-ayrı rayonların məktəblərinə paylanmışdı [1, s. 7-8].

Sonrakı illərdə tədricən bu hallar aradan qaldırılmağa başlamışdı, məktəblərin maddi-texniki bazalarının möhkəmləndirilməsi, yeni məktəb binalarının inşa edilərək istifadəyə verilməsi ilə bağlı xeyli müvəffəqiyyətli işlər görülmüşdü. Bu işlərin görülməsinə təkan verən amil Heydər Əliyevin qəbul etdiyi qərarlar olmuşdu. Heydər Əliyevin "2003-2007-ci illərdə ümumtəhsil məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi haqqında" fərmanı bu istiqamətdə qəbul edilən ən mühüm sənədlərdən biri olmuşdu. Fərmanın imzalanmasından sonrakı bir il ərzində təkcə muxtar respublikanın Ordubad rayonunda üç yeni məktəb binası (Dırnıs, Kələki və Çənnəb) tikilərək istifadəyə verilmişdi [2, v. 5].

1995-ci il yanvar ayının 1-dən 2004-cü ilə qədərki mərhələdə Naxçıvan Muxtar Respublikasında 57 elm və təhsil müəssisəsi, eləcədə də 15 min 368 şagird yerlik 51 ümumtəhsil məktəbi tikilmiş, 40 elm və təhsil müəssisəsi, həmçinin 15 min 802 şagird yerlik 27 ümumtəhsil məktəbi əsaslı şəkildə təmir olunmuşdu [8, s. 67]. 2004-2018-ci illərdə isə rəsmi statistikaya görə muxtar respublikada tikilən elm və təhsil müəssisələrinin sayı 160, məktəblərin sayı isə 111 olmuşdu. İnşa edilən bu məktəblərin ümumi şagird tutumu 34 min 204 nəfər olmuşdu. Bununla yanaşı həmin dövrdə 139 elm və təhsil müəssisəsi,

o cümlədən 45636 şagird yerlik 95 ümumtəhsil məktəbi əsaslı şəkildə yenidən qurulmuş və təmir edilmişdir [8, s. 82]. Yuxarıdakı statistika kifayət qədər cəlbedici olsa da, rəqəmlərlə bağlı aparılan təhlillər maraqlı bir məqamı üzə çıxarır. 1995-2020-ci illərdə bütün muxtar respublika ərazisində fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin sayı 221-dən 212-ə qədər azaldığı halda [10] tikilən və yenidən qurulan məktəblərin sayı 284 olmuşdu. Bu məqam bir çox hallarda tikinti və yenidənqurma işlərinin yetərli səviyyədə aparılmamasından, tikintinin keyfiyyət göstəricilərinə diqqətin yetirilməməsindən də xəbər verən statistika kimi qiymətləndirilə bilər.

## NƏTİCƏ

Təhlillərdən də aydın olduğu kimi, 1995-2003-cü illər Naxçıvan Muxtar Respublikasında həm təhsil, həm də elm sahəsində nəzərəçarpacaq kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdi. Təhsil müəssisələrinin maddi texniki bazası güclənmiş, ilk illərdə bu istiqamətlərdə olan çatışmazlıqlar əhalinin fədakarlığı və imkanları hesabına aradan qaldırılmış, sonrakı dövrdə isə Azərbaycan dövlətinin iqtisadi gücü muxtar respublikada təhsil müəssisələrinin bütövlükdə maddi texniki bazasının yenilənməsinə imkan vermişdi. Təhsil sahəsində islahatlar davamlı xarakter almış, yeni tipli və istiqamətli orta, orta ixtisas və ali təhsil müəssisələri yaradılmışdı.

## ƏDƏBİYYAT SİYAHISI


1. 2001-2002-ci dərs ilinin yekunları ilə əlaqədar Şahbuz Rayon Təhsil Şöbəsinin hesabatı Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, Fond 1, siyahı 12, iş 70, vərəq 8.
2. 2002-2003-cü tədris ilinin yekunları haqqında Ordubad rayon təhsil şöbəsinin illik hesabatı Naxçıvan MR Dövlət Arxivi, Fond 1, siyahı 12, iş 115. vərəq 10.
3. Azərbaycanın Regionları. Yeni İnkişaf dövrü: [3 cilddə] / -Bakı: Azərnəşr, -2017. Cild I. - 462 s.
4. Culfa rayon ümumtəhsil məktəblərində, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələrində 1998/99-cu tədris ilinin nəticələrinin yekunu və 1999,2000-ci tədris ilinin birinci yarısında görülən işlərə dair arayış Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, Fond 1, siyahı 12, iş 22. vərəq 15.
5. Hacıyev, İ.M. Naxçıvan Muxtar Respublikasınm ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər) / İ.M.Hacıyev. –Naxçıvan: Əcəmi NPB, –2011. –272 s.
6. Naxçıvan MR Təhsil Nazirliyi üzrə 1998-ci ilin 9 ayı üçün hesabat //Naxçıvan MR Dövlət Arxivi, Fond 1, siyahı 2, iş 22. –vərəq 3.
7. Naxçıvan MR Təhsil Nazirliyinin Kollegiyasının qərarı № 54. 26 dekabr 2003 // Naxçıvan MR Dövlət Arxivi, Fond 1, siyahı 12, iş 115. –vərəq 2.
8. Naxçıvan Muxtar Respublikası – 95 / Naxçıvan MR Ali Məclisi. –Naxçıvan: Əcəm NPB, -2019. -184 s.
9. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illər ərzində. –Naxçıvan: Əcəmi, -2001. -91 s.
10. Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə təminatı: [Elektron resurs] / Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin saytı, -2023. URL: http://statistika.nmr.az/source/healthcare/index.php#:~:text=Nax%C3%A7%C4%B1van%20Muxtar%20Respublikas%C4%B1nda%20%C3%BCmumt%C9%99hsil%20m%C9%99kt%C9%99bl%C9%99rinin%20informasiya%20v%C9%99%20kommunikasiya%20texnologiyalar%C4%B1%20(%C4%B0KT)%20il%C9%99%20t%C9%99minat%C4%B1
11. Naxçıvan şəhər orta ümumtəhsil məktəbləri üzrə 2001-2002-ci dərs ilinin yekunlarına dair hesabat // Naxçıvan MR Dövlət Arxivi, Fond 1, siy. 12, iş 70. –vərəq 7..
12. Naxçıvan şəhər təhsil şöbəsinin 1999-cu ildə gördüyü işlərə dair hesabat. 05.01.2000 // Naxçıvan MR Dövlət Arxivi, Fond 1, siy. 12. –vərəq 18.

13. Şərur rayon təhsil şöbəsinin 2001/2002-ci dərs ilinə dair hesabatı // Naxçıvan MR Dövlət Arxivi, Fond 1, siy. 12, iş 70. –vərəq 11.
14. Şərur rayon təhsil şöbəsinin illik hesabatı. 1998/99 // Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, Fond 1, siyahı 12, iş 22. –vərəq 3.

**SUMMARY**

**PRE-SCHOOL EDUCATION INSTITUTIONS AND SCHOOL INFRASTRUCTURE IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC: PROBLEMS AND REFORMS (1995-2003)**

**NURAY HAJIYEVA**

The years 1995-2003 are an important stage in the development of the education and science system in the Nakhchivan Autonomous Republic. After the national leader of Azerbaijan, Heydar Aliyev, returned to political power, fundamental reforms were started in the direction of modernization and improvement of the infrastructure of the national education system. These reforms had a significant impact on the educational landscape of Nakhchivan, and allowed the infrastructure of preschools and schools to be adapted to modern standards.

In the article, the problems of the educational infrastructure in the Nakhchivan Autonomous Republic in 1995-2003, the work done to eliminate them and the reforms were analyzed.

Methods such as archival documents, statistical data and analysis of scientific literature were used in the research. In the article, for the first time, the effectiveness of the measures implemented to eliminate the existing problems during that period was evaluated. It was determined that starting from 1991, various problems appeared in the infrastructure of pre-school educational institutions and this had a significant negative impact on their activity. The biggest difficulties were related to the lack of material and technical support and lack of professional staff.

The infrastructure of secondary schools began to be improved in those years. Works were carried out to repair the buildings of educational institutions, renew teaching equipment and increase the professional training of teachers. In various regions of the Nakhchivan Autonomous Republic, the construction of new educational buildings for schools has been started, and major repairs of existing schools have been carried out.

At the end of this period, although some progress was made in pre-school and secondary schools, it was clear that more extensive and continuous reforms were needed to fully improve the educational infrastructure. Those reforms were successfully implemented after 2003 - during the rule of the President of the Republic of Azerbaijan Ilham Aliyev.

**Key words**: *education, preschool, school, Nakhchivan, autonomous republic, reform, problem*

**РЕЗЮМЕ**

**УЧРЕЖДЕНИЯ ДОШКОЛЬНОГО ОБРАЗОВАНИЯ И ШКОЛЬНАЯ ИНФРАСТРУКТУРА В Нахчыванской Автономной Республике: ПРОБЛЕМЫ И РЕФОРМЫ (1995-2003 гг.)**

**Нурай Гаджиева**

1995-2003 годы являются важным этапом в развитии системы образования и науки Нахчыванской Автономной Республики. После возвращения общенационального лидера Азербайджана Гейдара Алиева к политической власти начались фундаментальные реформы в направлении модернизации и улучшения инфраструктуры национальной системы образования. Эти реформы оказали значительное влияние на образовательный ландшафт Нахчывана и

позволили адаптировать инфраструктуру дошкольных учреждений и школ к современным стандартам.

В статье проанализированы проблемы образовательной инфраструктуры Нахчыванской Автономной Республики в 1995-2003 годах, проделанная работа по их устранению и реформы.

В исследовании использовались такие методы, как архивные документы, статистические данные и анализ научной литературы. В статье впервые оценена эффективность мер, реализованных для устранения существующих проблем в этот период. Установлено, что начиная с 1991 года в инфраструктуре дошкольных образовательных учреждений возникли различные проблемы, что оказало существенное негативное влияние на их деятельность. Самые большие трудности были связаны с отсутствием материально-технического обеспечения и нехваткой профессиональных кадров.

В те годы начала улучшаться инфраструктура средних школ. Были проведены работы по ремонту зданий образовательных учреждений, обновлению учебного оборудования и повышению профессиональной подготовки учителей. В различных регионах Нахчыванской Автономной Республики начато строительство новых учебных корпусов школ, проведен капитальный ремонт существующих школ.

В конце этого периода, хотя некоторый прогресс был достигнут в дошкольных и средних школах, стало ясно, что необходимы более обширные и постоянные реформы для полного улучшения образовательной инфраструктуры. Эти реформы были успешно реализованы после 2003 года – во время правления Президента Азербайджанской Республики Ильхама Алиева.

**Ключевые слова:** *образование, дошкольное учреждение, школа, Нахчыван, автономная республика, реформа, проблема.*